I Beynəlxalq Humanitar və İctimai Elmlərin Əsasları Konfransının Materialları / (24 dekabr 2021)
Materials of the I International Conference on Humanities and Social Science / (24 December 2021)
DOI: https://www.doi.org/10.36719/2709-4197/2021/1/1

**Vəfa Mirəhməd qızı Seyid**
Azərbaycan Dillər Universiteti
vafaseidova@mail.ri

# QƏDİM CƏMİYYƏTDƏ İNSAN ADLARININ ƏMƏLƏ GƏLMƏ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *etnik cəmiyyət, ünifikasiya, onim, matriarxal dövr, patriarxal dövr*
***Key words:*** *ethnic society, unification, onym, matriarchal period, patriarchal period*

Dil ictimai məfhumdur. Bu və ya digər dilin fərdlər tərəfindən seçilməsi, nitqin müxtəlif formalarda mənimsənilməsi, məhz bu fərdin aid olduğu cəmiyyətlə, etnik və ya ictimai kollektivlə, qısaca olaraq – onun üzvü olduğu mədəni-tarixi birliklə müəyyən olunur. Dil öz inkişafında ümumi psixoloji, fizioloji və anatomik ilkin şərtlərə əsaslanır; amma, dilin dəyişməsini şərtləndirən tək element, cəmiyyətin dəyişməsidir.

Onomastik leksika da, leksikanın və eyni zamanda, dilin bir hissəsi olduğuna görə yuxarıda sadalanan şərtlər bu sahəyə də şamil olunur. Müxtəliftərkibli cəmiyyətdə müəyyən bir ada malik olmaq insana tanınmış hüquqlar verir, onun cəmiyyətdəki yerinə, qohumluq əlaqələrinə, qanuni və maddi hüquqlarına və tutduğu vəzifəsinə şahidlik edir.

İnsan sivilizasiyasının inkişafı zamanı matriarxal dövrdən patriarxal dövrə keçid tədricən baş verirdi. Patriarxal dövr kişi tərəfdən vərəsə kimi əldə edilən şəxsi mülkiyyətin meydana gəlməsi, özəyini kişilərin təşkil etdiyi, lakin əsasında qadınlar duran cins dəyişikliyi ilə xarakterizə olunurdu. Bu proses tez bir zamanda onomastika sahəsinə də təsir etmişdi. Kişi xətti ilə nəsildən nəslə keçən ad atadan oğula ötürülürdü. Belə bir hal qədim Afinada müşahidə edilirdi – hər bir yeni doğulan körpə atanın üzərinə (fratriyasına) yazılırdı, qadın isə ailə

DOI: https://www.doi.org/10.36719/2709-4197/2021/1/1

qurduqdan sonra soyadını itirərək başqa bir ailəyə köçürdü və bu ailənin soyadını daşıyırdı. Məsələn, Aristotel Asklepiadlar nəslinə mənsub olan həkim Nikomaxın oğlu idi. Onun atasının adı Eskulapın (Asklepiya) oğlu Maxaonun oğlu Nikomaxın oğlu Nikomax idi. Həqiqətdə isə, axırıncı nəslin üzvləri mifik də ola bilərdi. Alevad, Asklepiad, Branxid, Butad, Qesixid, İamid, Klitiad, Kodrid, Likomed, Midilid, Talfibiad, Fitalid, Evneid və s. kimi ləqəblər nəsilin qəhrəman-eponimi olan və atası hesab edilən mifik əcdadlardan törəmişdi: Butes, Qesixiy, Fital, Evmolp və s.

Yunanlarda bir sıra fəxri adlar (vəzifələr) müəyyən bir nəslə aid olurdu. Məsələn, Evmolpid və Kerik nəslindən ierofantlar (kahinlər) və Elevzinli Demetranın misteriyalarını (şəbih) idarə edən müşahidəçilər, Butadlardan Afina kahini Pallad və Akropolda Erexteyli Poseydon belə vəzifələri icra edirdilər. Zaman keçdikcə müxtəlif nəslə və tayfaya aid olan daha müqəddəs ayinlər nəslin kahinlərini saxlamaqla ümumyunan ayinlərinə çevrildilər. [1., s. 133-134].

Qədim Yunanıstanın ictimai quruluşunun öyrənilməsi onomastika sahəsində müasir tədqiqat işləri üçün də həddən artıq əhəmiyyətlidir, çünki çox ölkələrdə qəbul edilmiş müasir adlar tarixi və etimoloji cəhətdən qədim yunan adlarından törəmişdir. Bu adlarda Yunanıstanın ictimai quruluşunun bəzi izlərini görmək olur. Belə ki, məsələn, çox tez-tez tərkibində *bulé* və *agorá* olan adları (Trisabul, Anaksaqor, Pifaqor) çoxmənalı leksemlərin yer aldığı lüğətlərin verdiyi məlumatlar əsasında başa düşmək olmur. Yalnız adların tərkibində olan bu morfemlər yunan cəmiyyətinin həyatı haqqında dəqiq məlumatları verir. *Bule* – qədim yunan şəhərlərinin başçılarının şurası idi - senat timsalında; *aqora* – başçılar şurası tərəfindən hazırlanan qərarları qəbul edən və ya əksinə çıxan Xalq məclisi idi - Aşağı palata nümunəsi kimi. Adəti olaraq, "çar" kimi izahı verilən *Βασιλέύς* adı, çoxəsrlik tarix boyunca təbəqələşmə nəticəsində çarlar haqqında əmələ gələn təsəvvürlərdən çox uzaq olan bir mənaya malikdir. Yunan dilində *bazilevs* sözü slavyan sözü *knyaz* kimi *qoşun başçısıdır*. Basiley idarə üsulu nə tiran, nə despot, nə də mütləq monarxiya üsulu idi.

DOI: https://www.doi.org/10.36719/2709-4197/2021/1/1

Eramızdan 753 il əvvəl alban təpələrindən İtaliyaya köç edən romalılar 300 qəbilədən ibarət idi. Hər 10 qəbilə bir kuriyada (*bəzi burjua seçki sistemlərində seçicilərin silk, senz və s. əlamətlərinə görə dərəcələrə ayrılması*) birləşirdi və hər 10 kuriya da bir qəbilə halında toplanırdı. Hər 100 latın qəbiləsindən ramn tayfaları, sabinyanlardan tizian tayfaları, 100 qonşu tayfadan və həmçinin, etrusklardan luser tayfası yaranmışdı.

Siseronun ifadəsinə görə, qəbilə üzvü qəbilənin adını daşıyan, əcdadları qul olmayan, müstəqil valideynlərdən dünyaya gəlmiş və heç zaman vətəndaş hüquqlarından məhrum olmayan şəxslər hesab olunurdu. Romalılarda nəsil kişi xətti ilə hesaba alınırdı. Nəsil adları çox asanlıqla bu qəbilənin yaradıcısının və əcdadların adları ilə formalaşırdı. Belə ki, Emiliya törəmələri Emiliya da adlanırdı. Əgər ailədə yalnız bir qız olardısa, ona nəslin adı verilərdi. Məsələn, Yuliy Sezarın qızının adı Yuliya, Siseronun (Mark Tulliy) qızının adı Tulliya, Kay Oktabiy Avqustun bacısının adı Oktaviya idi. Əgər ailədə iki qız olardısa, onların adının qarşısına Böyük və Kiçik sözləri yazılar, çox qız olardısa, onları sıra nömrəsi ilə: Prima, Sekunda, Tersiya, Kvarta, Kvinta və s. ilə adlandırar və bu adlar əsasında da əzizləmə halına uyğun Tertulla, Kvartilla, Kvintilla və s. meydana gələrdi.

Qəbilə tarixində çox məşhur olan bir adam həmin nəslin əcdadı - eponimi ola bilərdi. Zaman keçdikcə nəslin eponimi dəyişilirdi. Ərazi ayrılığı nəticəsində qəbilələr bölünürdü. Ayrılan hissə nəsli parçalamamaq şərti ilə yeni ad götürə bilərdi. Buna misal olaraq Klavdiya nəslinə aid olan iki ailəni – Marsella və Klavdiya ailələrini göstərmək olar. Nəslin adının daşınması həmin nəslin soykökünün qədimliyinin sübutu idi, onu itirmək inanılmaz hadisələrlə nəticələnə bilərdi. [2., s. 21-26].

Beləliklə, onimlər apelyativlərdən fərqli olaraq ictimai dəyişikliklərə daha tez reaksiya verir. Adlarda cəmiyyətin ictimai və mədəni həyatı öz əksini tapır. Onomastik tədqiqatlar cəmiyyətdə baş verən ictimai prosesləri aşkar etməyə köməklik göstərir və buna görə də, onlar ictimai işlərdə mühüm yer tutmalıdır.

DOI: https://www.doi.org/10.36719/2709-4197/2021/1/1

## Ədəbiyyat

1. Морган Л. Г. Древнее общества, или исследование линий человеческого прогресса от дикости через ворварство к цивилизации. Изд. 2. Л., -1935, -с.133-134.
2. Superanskaya А. В. Общая теория имени собственного, «Наука», Москва, -1973, с. 21-26.